**Azərbaycan Respublikası Vergilər Nazirliyinin**
**Tədris Mərkəzi**

**“Azərbaycan Respublikasının vergi sistemi və vergi siyasəti**

# TƏLİM MATERİALI

**Dinləyicilər** Müsabiqə yolu ilə vergi orqanlarına staj müddətinə işə qəbul edilən əməkdaşlar, orta və kiçik menecerlər (mütəxəssislər).
**Təhsilalma forması** əyani;
**Tədris müddəti** **2** saat;
**Müəllif** Qarayev İmran Əliyar oğlu,

**Tədrisin məqsədi -** Vergi sistemi və vergi siyasətinin əsas istiqamətləri ilə tanış etməkdir.

Dinləyicilər təlimin sonunda vergi sisteminin elementləri vergi sistemini xarakterizə edən göstəriciləri, müasir vergi sisteminin xüsusiyyətləri ,vergi siyasətinin məqsədi funksiyaları və növlərini təhlil etmək bacarığına malik olmalıdır. .

**Bakı - 2020**

## Mövzunun mündəricatı

1. Azərbaycanda vergi sisteminin  xüsusiyyətləri   ......................................................
2. Vergi siyasətinin funksiyaları və növləri
3. Vergi yükü
4. Azərbaycanda vergi siyasətinin əsas istiqamətləri
Nəzarət sualları........................................................................................................
Müstəqil öyrənmək üçün tapşırıqlar........................................................................
4. Ədəbiyyat..............................................................................................................

# *I.* Azərbaycanda vergi sistemi

***Vergi sistemi haqqında ümumi anlayış:*** Vergilərə vergi ödəyiciləri ilə dövlət büdcəsinin qarşılıqlı maliyyə münasibətləri kimi baxmaq olar. Bu zaman maliyyə ehtiyatlarının dövlət büdcəsində konsentrasiyası baş verir. Vergi sistemi isə bu prosesi onun vəzifə, forma, üsul və prinsiplərini müəyyən etməklə inkişaf etdirir və konkretləşdirir.

Azərbaycanda vergilərin qədim tarixi mövcuddur.

***Azərbaycanda vergi sisteminin təkamül dövrünün qısa xülasəsi*** *(qədim dövrlər)*:

- Feodal münasibətləri formalaşdıqdan sonra bütün əhali-əkinçilər, sənətkarlar, ticarətlə məşğul olanlar üçün vergi mükəlləfiyyətləri müəyyənləşdirildi. III-IV əsrlərdə bu zümrədən can və torpaq vergisi, həmçinin, fövqəladə vergilər toplanirdı.
- IX-XI əsrlərdə feodal münasibətləri inkişaf etdi. Torpaq üzərində mülkiyyət hüququ olanlar - mülkədarlar dövlətə torpaq vergisi verirdilər. Torpaqdan istifadə müqabilində kəndlidən alinan vergi *üşr* (ondabir), sonralar isə *xərac* adlanırdı.
- XI-XIII əsrlərdə əhalinin müxtəlif təbəqələri xərac, üşr, cizyə, haqq, alaf, nüzl, əvariz, qismət, təyyarət, dəraib və s. adlanan vergi və rüsumlar ödəyir, bir sıra mükəlləfiyyətlər yerinə yetirirdilər.
- XV əsrdə kəndlilər istehsal etdikləri məhsulun 1/5 hissəsini dövlətə verirdilər. Bu vergi *bəhrə* adlanırdı. Hərbçilərin, mülki və ruhani vəzifələr tutan şəxslərin xeyrinə toplanan vergilərin məcmusu *ixracat* adlanırdı. Maldarlardan *çobanbəyi* vergisi alınırdı. Dövlətin və feodalların xeyrinə mükəlləfiyyətlər *(çərik, tərh, ulaq, ulam, biyar və s.)* mövcud idi.
- XVI-XVII əsrlərdə Azərbaycanda vergilər: torpaq və gəlir vergisi -malcəhət, bəhrə, xərac - natura ilə ümumi məhsulun 1/5, 1/3 hissəsini təşkil edirdi. Bağbaşı - məhsulun 1/10-nə bərabər idi. Çobanbəyi, çölpulu - örüşdə heyvanlan otarmaq üçün alınırdı.
- XVIII əsrin I yarısında İranda mövcud olan vergilər Azərbaycanda da tətbiq olunurdu: torpaq vergiləri (*malcəhət, üşr, çobanbəyi),* adambaşma alınan vergi (*sərşomari, cizyə),* qoşunları saxlamaq üçün vergi *(sursat, əsb-e çapar),*hərbi qulluq mükəlləfiyyəti (*çərik*), *təhzilat, peşkəş, xərc-e təyırı mütərəddin), bik, əvazir,* torpaqbasdı vergisi *(rəhdari)* və s.
- XVIII-XIX əsrlərdə Azərbaycan xanlıqlarında vergilər: malcəhət, bəhrə, xərac, salyana, çöpbaşı, karxana, bağbaşı, çobanbəyi, dəh-yek, cütbaşı, dəzgahbaşı və s.
- XIX əsrin əvvəllərində Azərbaycan Rusiya imperiyasının tərkibində oldugu dövrdə vergilər haqqında qanunlar, yerli xüsusiyyətlər nəzərə alınmaqla, mərkəzi hakimiyyət tərəfindən qəbul edilirdi. Vergi sistemi dövlət vergilərindən və yerli vergilərdən ibarət idi.

Qeyd: ***Dövlət tərəfindən təyin edilən və dövlət büdcəsinin maliyyə ehtiyatlarının yaradılması məqsədini güdən vergi, yığım, rüsum və digər ödənişlər, həmçinin onların yığılmasının forma, üsul və prinsipləri vergi sisteminin əsasını təşkil edir.***

Vergi sistemləri vergilərin sayı, növü və strukturu, tutulma üsulları, dərəcələri və s.-dən asılı olaraq bir-birindən əsaslı surətdə fərqlənirlər. Buna görə də praktikada onlara çoxsaylı milli xüsusiyyətlərə malik müxtəlif formalarda rast gəlinir. Vergi sistemi ayrıca olaraq götürülmüş bir ölkədə onu bilavasitə formalaşdıran əsas elementlərin qarşılıqlı əlaqəli məcmusudur. Bu elementlər aşağıdakılardır:




Vergi sistemi müəyyən edilmiş qaydada tutulan vergi, yığım, rüsum və digər ödənişlərin məcmusundan ibarətdir.

Ümumi olaraq  Avropa İttifaqına daxil olan və digər ölkələrin vergi sistemlərini təhlil edərək, nəticəyə gəlmək olar ki,  mütərəqqi vergi sistemi aşağıdakı əsas 5 prinsipə cavab verməlidir:

***1.Bərabərlik*** - vergi sistemi bütün vergi ödəyiciləri üçün bərabər və ədalətli olmalıdır, nəticədə eyni şəraitdə olan vergi ödəyiciləri üçün eyni vergilər tutulmalıdır və eyni əməliyyatlardan da eyni qaydada vergi alınmalıdır.

***2.Sadəlik*** **–** vergi sistemi mümkün qədər sadə olmalıdır ki, vergi ödəyicilər öz öhdəliklərini asan başa düşüb vergiləri vaxtında və tam ödəsinlər və eyni zamanda vergi orqanların inzibati xərcləri və vergi nəzarətdə çətinliklər azalsın.

***3.Kafilik*** **–** vergi sistemi dövlət büdcəsini kifayət qədər və qabaqcadan məlum olan gəlir mənbələri ilə təmin etməlidir.

***4.Səmərəlilik*** **–** vergi sistemi səmərəli olmalıdır və ölkənin iqtisadiyyatında məhsul və xidmətlərin istehsal həcminin artmasının qarşısını almamalı və ya azaltmamalıdır.

***5.Rəqabət qabiliyyəti*** **–** digər ölkələrin vergi sistemlərinə dair milli vergi sistemi rəqabət qabiliyyətli olmalıdır, ona görə ki uzun müddətli, davamlı və real iqtisadi inkişafı, yeni  iş yerlərinin yaradılmasını və artımını təmin edən sistem olmalıdır.

***Vergitutmanın prinsipləri:*** Vergitutmanın prinsipləri dedikdə, vergi sahəsində mövcud olan başlıca ideya və qaydaların məcmusu başa düşülür. Vergitutmanın prinsiplərini ilk dəfə 1776-cı ildə ingilis iqtisadçısı A.Smiti özünün "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında" adlı əsərində qeyd etmişdir. O 5 əsas prinsipi qeyd etmişdir:




Hal-hazırda vergitutmanın aşağıdakı prinsipləri həyata keçirilir:

*1.Təsərrüfat müstəqilliyi və sərbəstlik prinsipi.*
*2.Ədalətlilik prinsipi*
*3.Tarazlıq prinsipi.*
*4.Vergi ödəyicilərinin maraq və imkanlarının maksimum nəzərə alınması prinsipi.*
*5.Səmərəlilik prinsipi.*

Maliyyə resurslarının yenidən bölüşdürülməsi hesabına dövlətin və cəmiyyətin ayrı-ayrı sosial qruplarının maliyyə tələbatlarının təmin olunması, ölkənin vergi sisteminin formalaşdırılması məqsədilə həyata keçirilən tədbirlərin məcmusu ölkənin vergi siyasətinin əsasını təşkil edir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən 4-cü maddəsinə əsasən aşağıdakı vergilər müəyyən edilir və ödənilir:

- Dövlət vergiləri
- Muxtar Respublika Vergiləri
- Yerli vergilər.

Dövlət Vergilərinə aşağıdakılar aid edilir:

- Fiziki şəxslərin gəlir vergisi
- Hüquqi şəxslərin mənfəət vergisi
- əlavə dəyər vergisi
- aksizlər
- hüquqi şəxslərin əmlak vergisi
- Hüquqi şəxslərin toppaq vergisi və və fiziki şəxslərin nəzərdə tutlmuş torpaq vergisi
- Yol vergisi
- Mədən vergisi
- Sadələşdirilmiş vergi.

## II. Vergi siyasətinin funksiyaları və növləri

Vergi siyasətinin əsas subyekti dövlətdir. Dövlətin vergi siyasətinin əsas vəzifələri aşağıdakılardır:

- ✓ *sahə və ərazi nöqteyi-nəzərindən ölkə iqtisadiyyatının tənzimlənməsi üçün şəraitin yaradılması;*
- ✓ *dövlətin maliyyə ehtiyatları ilə təmin edilməsi;*
- ✓ *bazar münasibətləri şəraitində əhalinin gəlir səviyyələri arasında yaranmış qeyri-bərabərliyin hamarlanması.*

Vergilər aşağıdakı beş əsas funksiyanı yerinə yetirir:

**Vergilərin əsas funksiyaları**

- fiskal funksiya
- bölüşdürücü funksiya
- tənzimləyici funksiya
- inteqrasiyaedici funksiya
- nəzarətedici funksiya

Vergiləri yığım, rüsum və digər ödənişlərdən fərqləndirmək üçün onlara xas olan əsas əlamətləri qeyd etmək lazımdır. Verginin birinci əlaməti onun subyektin gəlirinin bir hissəsini dövlətin xeyrinə özgəninkiləşdirməsidir. Yəni, vergi ödənilən zaman mülkiyyətçinin gəlirinin müəyyən hissəsi dövlətin mülkiyyətinə keçir.

Verginin ikinci əlaməti onun təyin edilməsi və tətbiq olunmasının qanuniliyidir.

Vergilərin üçüncü əlaməti onların vacibliyidir. Qanunvericiliyə uyğun olaraq hər bir vergi ödəyicisi müəyyən şərtlər daxilində vergini ödəməyə borcludur.

Vergilərin dördüncü əlaməti onların məcburi xarakter daşımasıdır.

Vergilərin beşinci əlaməti onların pul formasında ödənilməsidir.

Vergilərin altıncı əlaməti onların əvəzsiz xarakter daşımasıdır.

Vergilərin yeddinci əlaməti onların abstrakt ödəniş olmasıdır. Vergilər büdcəyə keçirilərkən məqsədli təyinat daşımırlar, yəni onların konkret olaraq hansı dövlət xərclərinin ödənilməsi üçün köçürüldüyü göstərilmir. Dövlət büdcəsinə daxil olan vəsaitlər dövlətin bütün ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulur.

***Vergi siyasətinin mahiyyəti:*** Dövlətin vergi siyasəti dedikdə, dövlət tərəfindən işlənib hazırlanmış, vergi sahəsində cəmiyyətin qarşısında duran bu və ya digər vəzifələri həyata keçirməyə yönəlmiş tədbirlər sistemi başa düşülür. Vergi siyasətinin məqsəd və vəzifələri konkret iqtisadi şəraitdən asılıdır. Məqsəd və vəzifələri müəyyən edildikdən sonra dövlət onların həyata keçirilməsi üsullarını işləyib hazırlayır. Vergi siyasətinin əsas məqsədi vergilərin mahiyyəti və funksiyalarından irəli gəlir və məcmu ictimai məhsulun bir hissəsinin dövlət tərəfindən alınmasından və bu vəsaitlərin büdcə vasitəsi ilə yenidən bölüşdürülməsindən ibarətdir. Hər bir maliyyə ili üçün büdcə qəbul edilərkən vergi siyasətinin əsası qoyulmuş olur. Onun həyata keçirilməsi isə uyğun qanunvericilik və normativ aktların qəbul edilməsi yolu ilə aparılır.

Vergi siyasətinin həyata keçirilmə müddətindən, təsir dairəsindən, iqtisadi vəziyyətin dəyişməsinə reaksiyasından asılı olaraq müxtəlif formaları mövcuddur.

*Müddətindən asılı olaraq vergi siyasətinin formaları:*

**Vergi taktikası** – vergi sisteminə əlavə və dəyişikliklər edilməsi yolu ilə konkret bir dövrdə qarşıda duran məsələlərin həllini nəzərdə tutur.

**Vergi strategiyası** – vergi sahəsində dövlətin uzunmüddətli kursunu müəyyən edir və iri miqyaslı məsələlərin həllini nəzərdə tutur.

*Təsir dairəsindən asılı olaraq vergi siyasətinin formaları:*

**Daxili vergi siyasəti** bir ölkə və ya ərazi vahidi çərçivəsində həyata keçirilir və daxili məsələlərin həllini nəzərdə tutur.

**Xarici vergi siyasəti** ikiqat vergitutmanın aradan qaldırılmasına, müxtəlif ölkələrin vergi sistemlərinin yaxınlaşmasına, onların vahid şəklə salınmasına yönəldilir.

*İqtisadi vəziyyətin dəyişməsinə reaksiyasından asılı olaraq vergi siyasətinin formaları:*

**Diskresion vergi siyasəti** vergi dərəcələri və ya vergitutmanın strukturu ilə manipulyasiya etmək barədə hökumətin qərarları əsasında həyata keçirilir. O, iqtisadi tənəzzülün tez bir zamanda aradan qaldırılması və tarazlıq vəziyyətinin saxlanılması üçün istifadə edilir. Bununla əlaqədar olaraq diskresion siyasəti tez-tez stabilləşdirici siyasət də adlandırırlar.

**Qeyri-diskresion vergi siyasəti** isə hökumətin qərarlarından asılı olmayaraq, avtomatik surətdə həyata keçirilir. Bu özünütənzimləmə rejimində işləyən mexanizmlərin - «quraşdırılmış özütənzimləyicilərin» köməyi ilə mümkün olur.

Vergi siyasətinin məzmunu aşağıdakıları əhatə edir:

- *vergi sisteminin inkişafının elmi cəhətdən əsaslandırılmış konsepsiyasının işlənib hazırlanması*
- *vergitutmanın əsas prinsiplərinin və istiqamətlərinin müəyyən edilməsi*
- *cəmiyyətin sosial-iqtisadi inkişafı, büdcə gəlirlərinin artırılması, nəzarətin gücləndirilməsi, xarici iqtisadi fəaliyyətdə aktiv balansa nail olunması, ətraf mühitin mühafizəsi və d. sahələrdə qarşıya qoyulmuş konkret məqsədlərə nail olunmasına yönəldilmiş tədbirlərin işlənib hazırlanması*
- *Praktikada dövlət vergi siyasətini vergi mexanizmləri vasitəsi ilə həyata keçirir*
- *Vergi siyasətinin mahiyyətinin aşkar edilməsinin ilkin şərti vergi münasibətləridir*

Hər bir vergi sistemi əsaslandırılmış elmi yanaşmaya söykənməlidir. Elmi yanaşmanın vergi siyasətinə aşağıdakı müsbət təsirləri ola bilər:

1. vergi siyasətinin iqtisadi inkişafa təsirini daha da artırmaq üçün onu elmi cəhətdən əsaslandırmaq tələb olunur
2. elmi yanaşma vergi siyasətinin nisbi müstəqilliyini möhkəmlədə bilər
3. vergi siyasətinin təşkilinə elmi yanaşma, onun bütün amillərinin öyrənilməsi həmin siyasətin qanunauyğunluğunu təmin edir.

Dövlətin həyata keçirdiyi tənzimləmə vasitələrinin əsası **fiskal siyasət** hesab olunur. Fiskal siyasət dövlət xərcləri və vergi ilə bağlı olan tənzimləmə sistemidir. Bu siyasət xeyli dərəcədə hökümət xərclərinin, yəni dövlət idarə və orqanlarının, institutlarının saxlanılması və s. dinamikasından asılıdır. Fiskal siyasət, dövlətin büdcə və vergi siyasəti olmaqla, büdcə formalaşması siyasətini ifadə edir və eyni zamanda maliyyə siyasətinin tərkib hissəsi sayılır. Fiskal siyasəti makroiqtisadi tənzimləmənin əsas vasitələrindən biri, dövlət xərclərinin və vergitutmanın səviyyəsinin dəyişdirilməsi istiqamətində dövlət orqanlarının həyata keçirdiyi tədbirlərin məcmusu hesab etmək olar.

**Vergi dərəcələrinin növləri**

Beynəlxalq praktikada vergi dərəcələrinin 3 əsas növləriindən istifadə edilir:
- nominal vergi dərəcələri;
- effektiv (real) vergi dərəcələri;
- marjinal vergi dərəcələri.

Nominal vergi dərəcələri bilavasitə Vergi qanunvericiliyində öz əksini tapmışdır.Əgər tətbiq olunan vergi şkalası proqressiv vergi şkalasıdır sa onda vergiyə cəlb olunan vergi məbləğindən asılı faktiki ödənilən verginin vergiyə cəlb olunan məbləğdəki payı da dəyişir.Məsələn Azərbaycanda 101.1 maddəsinə əsasən vergi tutulan aylıq gəlirin məbləği 2500 manadək olduqda 14%, 2500 manatdan çox olduqda 25% -lə vergiyə cəlb olunurlar. Faktiki olaraq dövlət sektorunda çalışan əməkdaşın muzdlu işdən aylıq gəliri 5000 AZN olduqda onun ödədiyi vergilərin məbləği 975 AzN olacaqdır. Onda onun vergiyə cəlb olunan aylıq gəirlərdəki payı 19,5 % olacaqdır.

$$İef = 975/5000 \text{ X}100\% = 19.5\%$$

Bu effektiv və ya real vergi dərəcəsi adlanır. Marjinal vergi dərəcəsi elə bir vergi dərəcəsidir ki, vergiyə cəlb olunan məbləğ bir vahid artdıqda vergi dərəcəsi dəyışmir. Bu halda marjinal vergi dərəcəsi 25 % olacaqdır.

Fiskal siyasət məcmu tələbin, məşğulluğun və gəlirin səviyyəsinə təsir etmək üçün dövlətin xərclərdən, vergiqoymadan və borclanmadan istifadə edərək həyata keçirdiyi siyasətdir. ÜDM-in bir hissəsinin dövlətin xərclərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsinə cəlb edilməsi vergi siyasətinin fiskal məqsədini əks etdirir.

***Dövlətin fiskal siyasətinin tipləri:***

***Diskresion*** ***Avtomatik***

***Dövlətin fiskal siyasətinin növləri:***

***Ekspansionist*** ***Restriksionist***

➢ əgər natamam məşğulluq varsa, onda işsizliyin səviyyəsi eкspansiv budcə-vergi siyasətinin(dövlət xərcləri artırılır, vergilər azaldılır)кöməyi ilə azaldılmalıdır;

➢ əgər qiymətlərin umumi səviyyəsində artım varsa, onda inflyasiyanın qarşısının alınması restriкtiv fisкal siyasətin vasitələri ilə(vergilərin artırılması və dövlət xərclərinin azaldılması)həyata кeçirilməlidir;

➢ əgər tam məşğulluğa və qiymətlərin sabitliyinə nail olunubsa, onda budcə məcmu tələblə məcmu təкlif arasında balansı saxlamalıdır (neytral-кonyunкtur fisкal siyasət).

***Vergi siyasətinin tipləri:*** İqtisadiyyatın vəziyyətindən, iqtisadi inkişafın cari mərhələsində dövlətin üstün hesab etdiyi məqsədlərdən asılı olaraq vergi siyasətinin müxtəlif

tiplərindən istifadə olunur. Vergitutmanın ağırlığından asılı olaraq vergi siyasətinin üç tipi bir-birindən fərqləndirilir:




Maksimal vergilər siyasəti zamanı dövlət yüksək vergi dərəcələri tətbiq etməklə, vergilərin sayını artırmaqla, vergi güzəştlərini ixtisar etməklə vətəndaşlardan mümkün qədər çox maliyyə vəsaitləri toplamağa çalışır. Təbiidir ki, belə vergi siyasəti ayrıca götürülmüş konkret vergi ödəyicisi və ümumiyyətlə cəmiyyət üçün iqtisadi inkişafa heç bir ümid yeri qoymur. Buna görə də belə siyasət bir qayda olaraq fövqəladə hallarda, məsələn iqtisadi böhranlar, müharibələr zamanı həyata keçirilir. Belə siyasətin uzun müddət həyata keçirilməsi bir sıra mənfi nəticələrə gətirib çıxara bilər. Laffer əyrisi buna əyani misaldır: böhran nöqtəsindən aşağıda, yəni «normal zonada» vergi daxilolmaları artır, böhran nöqtəsindən yuxarıda, yəni «qadağan olunmuş zonada» isə daxilolmalar azalır.

Optimal vergilər siyasəti zamanı dövlət sahibkarlıq fəaliyyətinin subyektləri üçün vergi yükünü yüngülləşdirir, onların inkişafına təkan verən əlverişli vergi mühiti yaradır. Bu isə dövlət xərclərinin azalmasına, ilk növbədə sosial proqramların məhdudlaşdırılmasına səbəb olur. Sosial yönümlü yüksək dərəcəli vergilər siyasəti həyata keçirilərkən dövlət kifayət dərəcədə yüksək vergilər tətbiq etməklə nəzərəçarpacaq sosial müdafiə proqramları işləyib hazırlayır. Bu zaman büdcə gəlirlərinin böyük hissəsi müxtəlif sosial fondların artırılmasına yönəldilir.

***Vergi siyasətinin məqsədi:*** Vergi siyasətinin həyata keçirilməsi üsulları dövlətin bu siyasəti aparmaqla əldə etməyə çalışdığı məqsədlərdən asılıdır. Yüksək inkişaf etmiş bazar münasibətləri şəraitində dövlət tərəfindən vergi siyasəti istehsalın, ərazilərin iqtisadi inkişafının, əhalinin gəlirlilik səviyyəsinin strukturunun dəyişdirilməsi məqsədilə ÜDM-in bölüşdürülmüsi üçün istifadə edilir və bu siyasəti həyata keçirməyin aşağıdakı üsullarından istifadə olunur:

- ***vergi ödəyicisinin üzərinə düşən vergi yükünün dəyişdirilməsi;***
- ***vergitutmanın bir üsul və formalarının digəri ilə əvəz edilməsi;***
- ***bu və ya digər vergilərin yayılma dairəsinin dəyişdirilməsi;***
- ***vergi güzəştlərinin daxil edilməsi və ya ləğvi;***
- ***differensiasiyalı vergi dərəcələri sisteminin tətbiqi və s.***

Vergi siyasətinin həyata keçirilməsində vergi mexanizminin əsas alətləri vergi dərəcələri, vergitutma bazası və vergi güzəştləri hesab olunur. Vergi siyasəti aparılarkən iqtisadiyyatın tənzimlənməsində dövlətin iştirakı bir sıra vergi alətləri vasitəsi ilə həyata

keçirilir. Respublikada aparılan vergi siyasəti vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, hüquqi şəxslərlə fərdi sahibkarlar arasında, rezident və qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə, kiçik və orta sahibkarlıq, biznes fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına və son nəticədə mövcud iqtisadi potensialın artırılmasına və əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

### III .Vergi yükü

Optimal şəkildə qurulmuş vergi sistemi bir tərəfdən dövlətin maliyyə vəsaitlərinə olan tələbatını təmin etməli, digər tərəfdən isə vergi ödəyicisinin sahibkarlıq fəaliyyətinə olan marağını nəinki azaltmamalı, onu hətta təsərrüfatçılığın səmərəliliyini yüksəltmək üçün daim yollar aramağa sövq etməlidir. Buna görə də vergi yükü göstəricisi ölkənin vergi sisteminin keyfiyyət ölçüsüdür. Vergi yükünün optimal səviyyəsinin müəyyən edilməsi problemi inkişaf səviyyəsindən asılı olmayaraq istənilən ölkənin vergi sisteminin qurulması və təkmilləşdirilməsində mühüm rol oynayır.

-Beynəlxalq vergitutma təcrübəsi göstərir ki, vergi ödəyicilərindən tutulan vergilər onun məcmu gəlirinin 30-40 faizindən çox olduqda iqtisadi fəallığın səviyyəsi aşağı düşür, ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi azalır, ölkədəki biznes mühiti öz cazibədarlığını itirir. Bununla əlaqədar olaraq dövlətin vergi siyasəti vergi yükünün optimal səviyyəsinə nail olmağa yönəldilməlidir.

-Lakin bir çox ölkələrdə vergi yükü göstəricisinin kəmiyyəti yüksəkdir. Məsələn, İsveçdə vergi sistemi elə qurulmuşdur ki, vergi ödəyiciləri özlərinin gəlirlərinin 50% və daha artıq hissəsini dövlət xəzinəsinə ödəyirlər. Bu heç də onların istehsalın inkişafına marağını azaltmır.

-Vergi yükünün hesablanmasına müxtəlif yanaşmalar mövcuddur. Məsələn, vergi potensialının, əhaliyə düşən vergi yükünün səviyyəsinin, makro səviyyədə vergi yükünü və onun dinamikasını müəyyən edən və ölkə iqtisadiyyatının əsas makroiqtisadi göstəriciləri əsasında təyin olunan vergilərin ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisinin hesablanması metodikaları məlumdur. Təcrübədə ən ümumi şəkildə vergi yükü vergi daxilolmalarının cəminin ÜDM-in həcminə nisbətinin faizlə ifadəsi kimi təyin olunur.

Başqa sözlə

$$K = \frac{V}{ÜDM}$$

Burada: K - *vergi yükü;*
ÜDM - *ümumi daxili məhsul;*
V- *vergi daxilolmalarının həcmi.*

Mikrosəviyyədə vergi yükü vergi ödəyicisi tərəfindən büdcəyə ödənilən vergi məbləğinin onun məcmu gəlirlərindəki xüsusi çəkisi ilə ifadə olunur və aşağıdakı düsturla hesablanır:

$$k=(v/m)*100\%,$$

burada k- vergi ödəyicisinin vergi yükü, v – vergi ödəyicisinin il ərzində ödədiyi verginin məbləği; m – vergi ödəyicisinin illik məcmu gəliri.

Ümümi daxili məhsul milli mənsubiyyətindən asılı olmayaraq ölkə ərazisində yerləşən müəssisələrin maddi istehsal və xidmət sahələrindəki məhsullarının dəyərinin cəmidir.

İqtisadiyyatda daha tez-tez müraciət edilən, lakin hələ də öz həllini tapmamış əsas problem vergilərin səviyyəsi ilə dövlətin real gəlirləri arasındakı nisbət məsələsidir. Bu problemin həlli Laffer əyrisi adlanan və vergi dərəcələri ilə vergi daxilolmalarının həcmi arasındakı asılılığı əks etdirən əyrini meydana gətirdi.

Qrafiki olaraq bu əyri aşağıdakı şəkildə əks olunmuşdur.




Şəkil. Laffer əyrisi

burada,
*y - büdcə gəlirləri;*
*x - vergi dərəjəsi;*
$y_1$ - *büdcə gəlirlərinin maksimum mümkün həddi;*
$x_1$ – *büdcə gəlirlərinin maksimum qiymət aldığı vergi dərəjəsi.*

X oxu boyunja vergi dərəcələri, Y oxu boyunja isə vergi daxilolmalarının həjmi göstərilir. Vergi dərəjəsinin artması getdikjə yavaşıyan sürətlə büdjə gəlirlərinin artmasına səbəb olur. Nə qədər ki, iqtisadi prosesin iştirakçısının sövqedici maraqlarına ciddi surətdə toxunulmur, istehsalın həcminin azalma sürəti vergi dərəcəsinin artım sürətindən az olur. Ancaq elə bir $x_1$ həddi gəlib çatır ki, verginin ödənilməsi nəticəsində istehsalçının xalis gəliri qalmır. Adamlar isə yalnız vergi ödəmək üçün işləmirlər. Bunun nətijəsində də iqtisadi fəallıq azalır, vergidən yayınma halları kütləvi xarakter alır. Bütün bunlar isə vergi dərəcəsinin artmasına baxmayaraq büdcə gəlirlərinin azalmasına səbəb olur.

***Vergi tənzimlənməsinin əsas prinsipləri:***

- vergi münasibətlərinin bütün iştirakçılarının maraqlarının balanslaşdırılması;
- vergi tənzimlənməsinin səmərəliliyininin təmin olunması;
- vergi tənzimlənməsinin ünvanlı xarakterli olması;
- vergi tənzimlənməsinin dövlətin digər tənzimləmə tədbirləri ilə sistem halında uzlaşdırılması və tətbiqi

***Dövlət tənzimlənməsinin üsulları:*** Dövlət tənzimlənməsi üsullarını şərti olaraq birbaşa və dolayı üsullara ayırmaq olar. Birbaşa üsullar hakim-sərəncamverici münasibətlərə əsaslanır. Vergitutma sahəsində siyasətin də aid olduğu dolayı üsullar isə müəyyən fəaliyyət sahələrində iqtisadi maraqların yaradılması və ya bu maraqların aradan qaldırılmasını nəzərdə tutur. Məqsədindən asılı olaraq vergi tənzimlənməsi üsulları dörd qarşılıqlı əlaqəli sahəyə bölünür:

- *büdcə-vergi balanslaşdırılması;*
- *vergi güzəştləri sistemi;*
- *inzibati təsir;*
- *sanksiya tədbirləri.*

***Vergi güzəştləri:*** İstənilən dövlətin vergi siyasətində vergi güzəştləri mühüm yer tutur.

Vergi güzəşti vergitutma obyekti mövcud olan zaman vergi qanunvericiliyinin vergi ödəyicisinə vergini ödəməkdən tam və ya qismən azad olmaq üçün təqdim etdiyi müstəsna imkandır.

*Vergi güzəştlərinin aşağıdakı növləri var:*

- ***istisnalar***
- ***çıxılmalar***
- ***Vergi krediti***

**İstisnalar** ayrı-ayrı vergitutma obyektlərinin vergidən azad edilməsinə yönəldilmiş vergi güzəştləridir:

**Çıxmalar**- vergitutma bazasının azadılmasına yönəldilmiş güzəştlərdir.

**Vergi krediti**-vergi dərəcəsinin və ya məcmu verginin azaldılmasına yönəldilmiş güzəştlərdir.

***Vergi islahatlarının aparılması istiqamətləri:*** Vergitutmada islahatların aparılmasının əsas stimullarından biri həmişə vergi sisteminin sadələşdirilməsi zərurəti olmuşdur. Vergi sisteminin mürəkkəbliyi inzibati xərclərin artmasına səbəb olur, vergi ödəyicilərinin ayrı-ayrı qrupları arasında vergi yükünün qeyri-bərabər bölüşdürüldüyü fikrinə inamı artırır. Bununla da vergi sistemində islahatların aparılmasına klassik stimullar ölkədə qərarlaşmış iqtisadi imkanların yol verdiyi hədd daxilində reallaşdırılır. Hesab edilir ki, hər 5-7 ildən bir əsaslı vergi islahatları aparılmalı, hər 2-3 ildən bir isə qüvvədə olan vergi normalarının səmərəliliyinin dərin təhlili həyata keçirilməlidir. Əgər belə bir təhlil mənfi nəticə çıxarmağa əsas verirsə, onda yubanmadan islahatlar aparmaq lazımdır. Vergi islahatları vasitəsilə iqtisadiyyatın sabitləşdirilməsi üzrə səmərəli fəaliyyət aparmaq arzusunda olan dövlətlər üçün vergi eksperimentinin yalnız məzmunu deyil, həm də onun vaxtında və sürətlə həyata keçirilməsi çox əhəmiyyətlidir. Yubanmaq ona gətirib çıxarır ki, iqtisadiyyatda böhran vəziyyəti dərinləşər və həyata keçirilən eksperiment nəzərdə tutulan səmərəni verməz. Vergi islahatlarının vaxtında aparılmasından asılı olan problemləri beş qrupda sistemləşdirmək olar:

1. •Vergi siyasətində aparılması zəruri olan dəyişikliklərin vaxtında dərk edilməməsi;
2. •Vergi konsepsiyalarının təcrübədə tətbiq edilməsindəki gecikmələr;
3. •Vergi təcrübələrinin fəaliyyət istiqamətinin və onların məzmununun düzgün seçilməməsi;
4. •Vergi islahatından alınan səmərənin və onun vaxtının düzgün qiymətləndirilməməsi;
5. •Vergi təcrübələrindən alına bilən müsbət nəticələrə vaxtından əvvəl inam yaratmaq və mövcud reallığın lazımi səviyyədə qiymətləndirilməməsi.

## 4. Azərbaycanda aparılan vergi siyasətinin əsas istiqamətləri

Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin rəhbərliyi altında ölkəmizdə bazar iqtisadiyyatının formalaşdırılması, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində aparılan məqsədyönlü iqtisadi siyasət çərçivəsində çevik vergi siyasəti həyata keçirilir ki, bu siyasətin də əsas istiqamətləri aşağıdakılardır:

- vergilərin sayının azaldılması;
- vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsi;
- iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılması məqsədilə əlverişli investisiya mühitinin yaradılması;
- rezident vergi ödəyiciləri ilə qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsi;
- vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi;
- vergi ödəyicilərinin məlumatlandırılması, vergi təbliğatı;
- respublikanın və əhalinin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi;
- respublikanın ixrac potensialının inkişafının təmin edilməsi;
- vergi sisteminin vahid uçot-informasiya sisteminin təkmilləşdirilməsi;
- vergi inzibatçılığının təkmilləşdirilməsi;
- vergi ödəyicilərinin gəlirləri üzərində səmərəli nəzarət mexanizminin tətbiqi;
- vergi intizamına əməl olunması üzərində nəzarət sisteminin təkmilləşdirilməsi və vergi hüquq pozuntusu hallarına görə məsuliyyət sisteminin daha da şərtləşdirilməsi;
- vergi xidməti orqanları əməkdaşlarının səmərəli fəaliyyət göstərməsi məqsədi ilə vergi orqanlarının maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi.

Azərbaycan Respublikasında vergi siyasətinin həyata keçirilməsi ilə bağlı nəzərdə tutulan perspektiv inkişaf istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- innovasiya yönümlü iqtisadiyyatın inkişafı üçün əlverişli vergi mühitinin formalaşdırılması
- e-kommersiyaya vergi nəzarətinin təşkili, nağdsız ödənişlərin stimullaşdırılması
- bəyannamələrin əvvəlcədən doldurulma sisteminin tətbiqi, ümumi bəyannamə sisteminə keçidə hazırlıq
- aktiv vergi siyasətinə keçidin təmin edilməsi

Qeyd olunan istiqamətlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasında vergi sisteminin normativ-hüquqi bazası yaradılmışdır ki, bu da aşağıdakı prinsiplər rəhbər tutulmaqla həyata keçirilir:

Bütün təsərrüfat subyektlərinin və vətəndaşların qanun qarşısında hüquq bərabərliyi;

Vergi ödəyicilərinin bəzi kateqoriyalarına verilən vergi imtiyazlarının qanunla təsdiq olunması;

Vergi siyasətinin sabitliyi və ardıcıllığı;

Vergi yığımında şəffaflığının təmin olunması;

Mütərəqqi vergitutma formalarına üstünlük verilməsi;

Vergi xidməti orqanlarının qeyri-qanuni hərəkətlərinə yol verilməməsi və s.

***Azərbaycan Respublikasında vergi xidmətinin modernləşdirilməsi:*** Azərbaycanda vergi xidmətinin modernləşdirilməsi prosesinə təxminən 15 il bundan əvvəl başlanmışdır. Qısa müddət ərzində ölkənin bu sahədə başlıca qanunvericilik aktının - Vergi Məcəlləsinin qəbul edilməsinə nail olunmuşdur. Bu mürəkkəb bir prosesdir, belə bir Məcəllənin qəbulu uzun müddət və böyük zəhmət tələb edən prosesdir. Azərbaycan son 15 ildə ölkədə vergi yükünün aşağı salınması, vergi menecmentinin müasirləşdirilməsi, vergi xidmətində informasiya texnologiyalarının tətbiqi və genişləndirilməsi istiqamətində çox ciddi nailiyyətlərə imza atmışdır. Ölkəmiz səmərəli nəzarət mexanizmləri qurmağa, iqtisadiyyatın dəyişən və sürətlə artan həcminə adekvat çevik vergi sistemi yaratmağa nail olmuşdur. Bu gün Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 80 faizini təşkil edir.

Azərbaycanın vergi xidməti regionda ən böyük iqtisadi sistemə xidmət edir.

***Vergi ödəyicilərinə göstərilən illərdə yaradılan xidmətlərin istiqamətləri aşağıdakılardır:***

***Göstərilən istiqamətlər üzrə xidmətlər:***

1. E-bəyannamələrlə bağlı xidmətlər
2. Vergilər barədə məlumat və izahatların verilməsi
3. Təlimlər
4. Uçot məlumatlarına baxış imkanı
5. Vergi borcu barədə məlumat

***Cağrı Mərkəzi üzrə göstərilən xidmətlər***

- Sualların cavablandırılması
- Ərizə və şikayətlərin qəbulu
- Mesajların (sms-lərin) göndərilməsi
- Ünvanlı xidmət

Vergi sistemində son illər ərzində aparılan islahatların əsas xətti xidmətin texnoloji baxımdan inkişafına çatmaqla bütövlükdə vergi xidmətinin bütün sahələrində uğurun təmin edilməsinə nail olmaqdan ibarətdir. Vergilər Nazirliyi elektron hökumətin tərkib hissəsi hesab ediləcək xidmətlərin elektronlaşdırılması prosesinə 2005-ci ildən başlamış, vergi sistemində vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə geniş bir Dövlət Proqramı həyata keçirilmişdir.

2006-cı ildə vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına imkan verən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiqinə nail olunmuşdur. Bu vergi sisteminə vahid informasiya məkanında məlumatların saxlanılması və emalı imkanını yaratmış, elektron sənəd dövriyyəsini, operativ informasiya mübadiləsini təmin etməyə imkan vermişdir. Qısa müddət ərzində vergi sistemində bütün proseslərin tam şəkildə elektronlaşdırılmasına nail olunmuşdur.

AVİS-in texniki imkanları olduqca geniş layihələndirilmişdir. Bu sistem qurularkən qarşıdakı dövrdə onun vasitəsilə vergi ödəyicilərinə elektron xidmətlər sahəsində mövcud olan ən müasir təcrübələrin tətbiq edilməsi nəzərdə tutulmuşdur. Bütün bunlar təbii ki, büdcə qarşısında olan fiskal vəzifələrin yerinə yetirilməsi prosesi ilə paralel şəkildə aparılır. Ölkədəki

iqtisadi artım, iqtisadi münasibətlərin fəallığı sistemin daha radikal şəkildə dəyişdirilməsi imkanlarına təsir göstərir. Bununla belə, yaranmış dövr bu islahatların həyata keçirilməsi üçün əlverişli olmuşdur.

***Azərbaycan Respublikasının vergi sisteminin ölkə iqtisadiyyatının inkişafında rolu:*** Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış iqtisadi inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük məharətlə, uğurla həyata keçirilməsi respublikamızda yeni inkişaf modelinin formalaşmasına və onun dünya iqtisadiyyatına inteqrasiyasına, qloballaşma şəraitində Azərbaycanın milli iqtisadiyyatının dayanıqlı inkişafına, iqtisadiyyatın tarazlı və proporsional tərəqqisinə, əhalinin rifah halının yaxşılaşmasına imkan vermişdir.

Milli iqtisadi inkişaf strategiyasında mühüm rol oynayan vergi xidməti orqanlarında son illər vergi sisteminin təkmilləşdirilməsi, vergitutma bazasının genişləndirilməsi, vergi xidmətinin müasir Avropa standartlarına uyğunlaşdırılması sahəsində əhəmiyyətli işlər görülmüş, vergi qanunvericiliyi və vergi inzibatçılığının müasir tələblər baxımından qurulmasında bir sıra müvəffəqiyyətlərə nail olunmuşdur.

***Bu sahədə fəaliyyətin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:***




Bu strateji prioritetlər və ölkənin maliyyə imkanlarının sürətlə artması vergi qanunvericiliyinin və inzibatçılığının beynəlxalq standartlara uyğunlaşma proseslərinin daha sürətlə aparılmasına tələblər və eyni zamanda imkanlar yaradır.

Elektron cəmiyyətin formalaşdırılması istiqamətində dövlət siyasətinə çevik reaksiya verən orqanlardan biri məhz Vergilər Nazirliyi olmuşdur. Bu proqram çərçivəsində 2006-cı ilin yanvarın 1-dən başlayaraq ölkə üzrə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) fəal olaraq işə düşmüşdür və onun reallaşdırılması nəticəsində Azərbaycanın vergi xidməti təkcə MDB ölkələri arasında deyil, həm də Şərqi Avropada ən modern informasiya texnologiyasına malik xidmətlərdən birinə çevrilmişdir. AVİS layihəsinin əsas məqsədi sürətli və vergi siyasətinin həyata keçirilə bilməsi üçün fəal bir texnologiya dəstəyi təmin etməkdir.

## III. Nəzarət sualları

1. Vergi siyasətinin iqtisadi inkişafa təsirini daha da artırmaq, onun nisbi müstəqilliyini möhkəmləndirmək  üçün əsasən hansı amillər tələb olunur?
5. Vergi sahəsində mövcud olan başlıca ideya və qaydaların məcmusu dedikdə əsasən nə başa düşülür?
6. “Vergi sistemi dövlət büdcəsini kifayət qədər və qabaqcadan məlum olan gəlir mənbələri ilə təmin etməlidir” prinsipi  mütəqəqqi vergi sisteminin hansı prinsipinə aid edilir?
7. Azərbaycan Respublikasında Vergi xidmətində aparılan sistemli islahatların məqsədi nəticə etibarilə hansı prinsipə  xidmət edir?
8. Azərbaycan Respublikasında sahibkarlığın inkişafında mühüm mərhələ sayılan, 2008-ci ilin əvvəlindən tətbiqi ilə elektron hökümətin əsas elementlərindən olan məlumatların bir

mərkəzdə cəmləşdirilməsini, vergi qeydiyyatı da daxil olmaqla bütün inzibatı qeydiyyatların tamamilə sinxronlaşdırılmasını həyata keçirən sistem necə adlanır?
9. Mütərəqqi vergi sistemi hansı əsas prinsiplərə cavab verməlidir?
10. Vergi siyasətinin həyata keçirilməsində vergi mexanizminin əsas alətləri hansılardır?
11. Sahibkarlıq fəaliyyətinin subyekləri üçün vergi yükünü yüngülləşdirən, lakin sosial proqramlar məhdudlaşdıran vergi siyasəti necə adlanır?
12. ÜDM-in bir hissəsinin dövlətin xərclərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsinə cəlb edilməsi vergi siyasətinin hansı məqsədini əks etdirir?
13. Makrosəviyyədə «vergi yükü» kəmiyyətcə nəyi əks etdirir?
14. Laffer əyrisi hansı göstəricilər arasındakı asılılığı əks etdirir?
15. Vergilər hansı əsas funksiyanı yerinə yetirir?

## V. Müstəqil öyrənmə üçün tapşırıqlar

1. Dövlətin vergi siyasətini formalaşdıran amillər;
2. İqtisadiyyatın dövlət tənzimlənməsində vergi siyasətinin rolu;
3. Avropa İttifaqına daxil olan ölkələrin vergi siyasətinin qısa təhlili və mütərəqqi vergi sisteminin əsas prinsipləri;

## VI. Ə D Ə B İ Y Y A T


1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi
3.Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q.(2011). Xarici ölkələrin vergi sistemi. Bakı: “İqtisad Universiteti”, 554 s
4. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. Vergilər və vergitutma. Dərslik. Bakı, 2010, s. 512
5. Məmmədov Ə.C. (elmi redaktorluğu ilə) Ünvanlı vergi xidməti. Təlimçilər üçün vəsait. Bakı, 2013
6. Musayev A.F., Məmmədov Ə.C. “Ünvanlı vergi xidməti” Vergi ödəyicilərinin məlumat kitabı. Bakı, 2013, 288 s
7. Musayev A.F., Qəhrəmanov A.Q. Vergi mədəniyyəri. İkinci nəşr. Bakı, 2010
8. Musayev A.F., Kəlbiyev Y.A., Hüseynov A.A. Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr. Bakı, 2002
9.Vəliyev T.S., Babayev Ə.P., Meybullayev M.X. (ümumi elmi redaktəsi ilə) İqtisadi nəzəriyyə. Bakı, Çaşıoğlu, 1999
10. Абрамов В. А.(2010). Упращенная система налогообложение. Москва. Ос-89, 287 с. *(Abramov V.A. (2010). Sadələşdirilmiş vergi sistemi. Moskva. Os-89, 287 s.)*
11. Анишенко А.В. (2009). Оптимизация налогов. Москва. Изд-во Бухгалтерский учет, 128 с. *(Anişenko A.V. (2009) Vergilərin optimallaşdırılması. Moskva. Mühasibat uçotu Nəşriyyatı, 128 s.)*
12.Попова Л.В., Дрожжина И.А., Маслов Б.Г.(2008) Налоговые системы зарубежных стран. М.: 368 с. (*Popova L.V., Drojjina İ.A., Maslov B.Q.(2008) Xarisi ölkələrin vergi sistemi. M.: 368 s.)*
13. http://www.e-taxes.gov.az/
14. https://news.day.az/azerinews/982475.html
14. Kath Nightingale . Taxation/ Theory and practice Prenice Hall. 2010